UOT 97 (477)

# UKRAYNANIN MÜSTƏQİLLİK TARİXİNDƏN

**A.Ş.ŞAHMURADOV**
***Azərbaycan Dillər Universiteti***
***agil1965@mail.ru***

*XX əsrin 80-cı illərinin sonlarında SSRİ-yə daxil olan digər respublikalar kimi, Ukrayna da sosial-iqtisadi, siyasi və ideoloji böhran vəziyyətində idi. M.S.Qorbaçovun qeyri-müəyyən xarakterə malik "yenidənqurma" siyasəti Ukraynada bu böhranın daha da ağırlaşması və müstəqillik meyllərinin artması ilə müşayiət olunurdu. Nəticədə, respublikada sovet hakimiyyətinə müxalif mövqedə olan partiya və təşkilatlar yaranmış, genişmiqyaslı nümayişlər təşkil edilmiş, Kommunist partiyası hakimiyyətdən uzaqlaşdırılmışdı. 1991-ci ilin avqustunda SSRİ-də dövlət çevrilişi cəhdi iflasa uğradıqdan sonra siyasi proseslər daha da sürətlənmiş və avqustun 24-də Ukrayna özünün dövlət müstəqilliyini elan etmişdi.*

**Açar sözlər:** Ukrayna, Ali Rada, Ukrayna xalq hərəkatı, Ukraynanın suverenliyi, dövlət

1985-ci ildə M.S.Qorbaçovun SSRİ-də hakimiyyətə gəlməsilə başlamış və elmi cəhətdən kifayət qədər əsaslandırılmamış yenidənqurma siyasətinin 80-ci illərin sonlarında artıq iflasa uğradığı şübhə doğurmurdu. Kommunist partiyası cəmiyyətdəki nüfuzunu itirmiş, ölkə dərin sosial-iqtisadi böhrana düçar olmuş, insanların siyasi hakimiyyətə inamları qalmamışdı və bütün bunlar SSRİ-ni təşkil edən respublikalarda mərkəzdənqaçma meyllərinin güclənməsilə müşayiət olunurdu. Yenidənqurmanın mənfi təzahürlərinə məruz qalmış respublikalardan biri də, əvvəlki dövrlərdə sovet respublikaları arasında özünün yüksək sosial-iqtisadi göstəriciləri ilə seçilmiş Ukrayna olmuşdu.

1980-ci illərin sonlarında Ukraynada siyasi hərəkat getdikcə genişlənir, əhalinin daha geniş təbəqələrini özünə cəlb edirdi. Müstəqil Ukraynanın yaradılması istiqamətində ziyalıların və gənclərin, xüsusilə tələbə gənclərin mübarizəsi hadisələrin sonrakı inkişafına böyük təsir göstərirdi. Mövcud rejimə müxalif olan təşkilatların yaradılmasında da tələbələr fəallıq nümayiş etdirirdilər. 1989-cu ildə təsis edilmiş Ukrayna Tələbə Assosiasiyası respublikada meydana gəlmiş qeyri-formal təşkilatlar arasında aktivliyi ilə seçilirdi. Assosiasiya öz fəaliyyətində bütün tələbələrin təqaüd və yataqxana ilə təmin olunması kimi sosial tələblərlə yanaşı, ali məktəblərdə marksizm-leninizm fənninin tədrisinin və ondan verilən dövlət imtahanının ləğv edilməsi, rektor və dekanların seçki yolu ilə müəyyənləşdirilməsi, institutlarda partiya təşkilatlarının fəaliyyətinin dayan-

dırılması, komsomol təşkilatlarının səlahiyyətlərinin gənclər təşkilatları assosiasiyalarına verilməsi kimi siyasi-ideoloji tələblər də irəli sürürdü (1, 543).

Ukraynada demokratik hərəkatın inkişafında əsas rol oynamış Ukrayna Xalq Hərəkatının təsis qurultayı 1989-cu il sentyabrın 8-dən 10-dək Kiyevdə keçirilmişdi. Qurultayda iştirak etmiş 1109 nümayəndənin yarıya qədəri qərb vilayətlərini, üçdə birindən çoxu mərkəz vilayətlərini, az bir hissəsi isə şərq və cənub vilayətlərini təmsil edirdilər. İ.Draç Ukrayna Xalq Hərəkatının sədri seçildi (1, 544). Ukraynanın müstəqilliyi uğrunda mübarizə aparan bu təşkilatın liderləri Ukrayna KP MK-nın Plenumunun "Cari dövr haqqında" adlı Qətnaməsində "konkret sosial-iqtisadi proqramı olmayan, lakin partiya və sosializmə qarşı birbaşa və açıq hücuma keçən, qanuni seçilmiş hakimiyyət orqanlarını qeyri-qanuni yollarla kənarlaşdırmağa çalışan..." bir qüvvə kimi xarakterizə edilmişdi (2, 14).

1990-cı il martın 4-də Ukrayna Ali Radasına və yerli xalq deputatları sovetlərinə keçirilmiş seçkilərin nəticələri bu respublikada kommunist rejiminin dayaqlarının kifayət qədər sarsıldığının bariz nümunəsi idi. Ümumiyyətlə, 450 yerlik parlament uğrunda 3 min nəfərədək namizədin mübarizə apardığı (3, 20) bu seçkilər sovet dövründə Ukraynada keçirilmiş ən demokratik seçkilər hesab olunur. Seçki kompaniyasını uğurla aparmaq üçün müxalifət cəbhəsini təmsil edən Ukrayna Xalq Hərəkatı, "Memorial" təşkilatı, Ukrayna Helsinki İttifaqı, T.Şevçenko adına Ukrayna dili cəmiyyəti və daha 39 təşkilat və cəmiyətin daxil olduğu və əhalini Ukraynanın siyasi və iqtisadi suverenliyinin tərəfdarı olan namizədlərə səs verməyə çağıran Demokrtik blok təsis olunmuşdu. Seçkilər nəticəsində Ali Radaya 483 deputat seçilmişdi ki, onların da 85 %-i kommunistlər idi. Yerli sovetlərə seçkilərdə isə kommunistlər yerlərin 50 %-nə sahib olmuşdular. Ərəb vilayətlərində, xüsusilə Lvov, İvano-Frankovsk və Ternopolda kommunistlər ciddi məğlubiyyətə uğradılar, bu da qanunverici orqanda kommunistlərin şəriksiz ağalığının sonu demək idi. Mayın 15-də fəaliyyətə başlamış Ali Radada artıq iki blok formalaşmışdı. Onlardan biri, 125 deputatdan ibarət olan və İ.Yuxnovskinin başçılıq etdiyi "Xalq Radası" müxalifət cəbhəsini, A.Morozun rəhbəri olduğu və parlament çoxluğunu təşkil edən kommunistlərin formalaşdırdıqları "239-lar qrupu" isə hakimiyyət cəbhəsini təmsil edirdi. Ali Radanın 23 komissiyasından 7-nə müxalifətçilər rəhbərlik edirdilər. Ukrayna Kommunist partiyasının birinci katibi V.İvaşko Ali Radanın sədri seçildi (2, 16).

Bir-birinə əks olan siyasi qüvvələrin təmsil olunduqları Ali Radanın formalaşmasından sonra Ukraynada Moskvanın təsirindən uzaqlaşmaq istiqamətində növbəti addım atıldı. 1990-cı il iyulun 16-da "Ukraynanın dövlət suverenliyi haqqında Bəyannamə" qəbul edildi. Bəyannamədə Ukrayna hakimiyyət orqanlarının respublika ərazisində aliliyi, müstəqilliyi, bütövlüyü və bölünməzliyi, xarici əlaqələrdə müstəqilliyi və bərabər hüquqlu olması bəyan edilirdi. Ukrayna xalqı adından yalnız Ali Rada çıxış edə bilərdi. Mövcud sərhədlər daxilində Ukrayna ərazisinin toxunulmaz olduğu bildirilirdi.

V.İvaşkonun Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində

yeni vəzifəyə təyin olunması ilə əlaqədar olaraq iyulun 18-də L.Kravçuk Ukrayna Ali Radasının yeni rəhbəri seçilmişdi.

Ukrayna ərazisindən Sovet ordusuna çağrılmış hərbçilərin öz xidmətlərini respublika ərazisində davam etdirmələri üçün onların geri çağırılması haqqında Ali Rada iyulun 30-da qərar qəbul etdi (1, 561). Bundan başqa qanunverici orqan Ukraynanın iqtisadi suverenliyini təmin etmək istiqamətində də müəyyən sənədlər qəbul etmişdi.

Yuxarıda qeyd olunanlarla yanaşı, onu da bildirmək lazımdır ki, siyasi əhəmiyyətə malik olan "Ukraynanın dövlət suverenliyi haqqında Bəyannamə" konistitusiya aktı deyildi, bu da istər respublikadakı mühafizəkar qüvvələrə, istərsə də İttifaq hakimiyyət orqanlarına SSRİ və Ukraynanın qüvvədə olan konstitusiyalarına əsaslanaraq onun tətbiqinə mane olmağa hüquqi şərait yaradırdı. Bu da, öz növbəsində, Ukraynada müstəqillik tərəfdarlarının siyasi fəallığının artması ilə nəticələnmişdi. 1990-cı ilin oktyabrında tələbələrin Kiyevdə başlamış aclıq aksiyasını buna misal göstərmək olar. Oktyabrın 2-də Kiyevin Oktyabr inqilabı meydanında 40 nəfər tələbənin iştirakı ilə başlamış bu aksiyaya bir neçə gündən sonra Ukraynanın 25 şəhərindən gəlmiş 100 nəfərdən çox tələbə də qoşulmuşdu. Aclıq aksiyasının təşkilatçısı kimi, özünü komsomol təşkilatına qarşı qoymuş Ukrayna Tələbə Assosiasiyası çıxış edirdi. Tələbələrin mübarizəsi tez bir zamanda geniş əks-səda doğurmuş və Kiyevdə tələbələri müdafiə məqsədilə nümayişlər başlamışdı. Etiraz aksiyalarında hakimiyyət orqanları qarşısında əsasən siyasi xarakterli tələblər irəli sürülürdü. Bura, Ukrayna Ali Radasının buraxılması və çoxpartiyalı sistem əsasında yeni seçkilərin keçirilməsi, Kommunist partiyasının və Ümumittifaq komsomolunun Ukrayna ərazisindəki əmlakının milliləşdirilməsi, V.Masolun rəhbərlik etdiyi hökumətin istefaya göndərilməsi, Yeni ittifaq müqaviləsini imzalamaqdan imtina etmək və s. tələblər daxil idi. Tələblərin radikallığına baxmayaraq tələbələrin liderlərindən birinə, Olesya Doniyə onları Ali Radanın tribunasından bəyan etmək imkanı verilmişdi. Ali Rada isə, öz növbəsində, böyük səs çoxluğu ilə bu tələblərin hamısını qəbul etmiş və bundan sonra aclıq aksiyası dayandırılmışdı. Hökumət başçısı V.Mosol tutduğu vəzifədən istefa vermişdi. (4, 285). Bunun ardınca, Ukrayna Xalq Hərəkatının oktyabrın 25-dən 28-dək Kiyevdə keçirilmiş ikinci Ümumukrayna yığıncağında Ukraynanın müstəqilliyi və demokratikliyi uğrunda mübarizə aparmaq əsas xətt kimi müəyyənləşdirilmişdi.

1990-cı il oktyabrın 23-də Ukrayna SSR-nin Konstitusiyasına edilmiş dəyişiklikləri müstəqillik istiqamətində atılmış ciddi addımlar kimi qəbul etmək olar. Konstitusiyanın 6-cı maddəsində Kommunist partiyasının rəhbər rolu haqqında müddəa aradan qaldırılmış və müxtəlif xarakterli partiyaların sərbəst fəaliyyət göstərmək hüququ təsbit olunmuşdu. Bundan başqa, yeni redaksiyada verilmiş 71-ci maddə respublika qanunlarının Ukrayna ərazisində aliliyini təmin edir, 120-ci maddə Ukrayna SSR Nazirlər Şurasının qərar və qətnamələrinin respublikada məcburi yerinə yetirilməsini tələb edir, 149-cu maddə isə Ukrayna SSR Ali Məhkəməsini Ukrayna ərazisində ali məhkəmə instansiyası elan edirdi (1, 563).

Ümumiyyətlə, 1990-cı il SSRİ tarixində "suverenitetlər paradı" kimi yadda qalmışdır. Qeyd olunan ilin sonunadək bütün müttəfiq respublikaların Ali Sovetləri öz suverenlikləri haqqında bəyanatlar qəbul etmişdilər. Respublika qanunlarının ittifaq qanunları üzərindəki üstünlüyü ideyası, mərkəzi hakimiyyət orqanlarına etimadsızlıq, ərazilərindəki resurslar və onlardan istifadə üzərində yerli orqanların nəzarətini yaratmaq, respublikaların idarəetmə strukturlarına milli kadrları irəli çəkmək kimi məqamlar bu bəyanatların əsas məzmununu təşkil edirdi.

M.S.Qorbaçov SSRİ-nin tam dağılmasının qarşısını almaq məqsədilə, SSRİ Ali Sovetinin 1990-cı il 17 noyabr tarixli iclasında unitar dövlət olan SSRİ-nin əvəzinə yeniləşmiş ittifaq müqaviləsi imzalamaq, bu müqavilənin imzalanmasına qədər respublikaların hakimiyyət orqanlarının qəbul etdikləri bütün qərarların dondurulması təklifi ilə çıxış etdi. Müttəfiq respublikaların əksəriyyətinin rəhbər xadimləri SSRİ prezidentinin bu təklifinə münasibət bildirərək, respublikalarının suverenliklərindən imtina etmək fikrində olmadıqlarını bildirmişdilər. Rusiya Federasiyasının rəhbəri B.Yeltsin qeyd olunan məsələyə qeyri-ciddi yanaşaraq, təklifin irəli sürüldüyü iclasda ümumiyyətlə iştirak etməmişdi. Ukrayna Nazirlər Sovetinin sədri V.Fokin təklifə münasibət bildirərək bəyan etmişdi: "Hamı bilməlidir ki, suverenlik haqqında bəyanatlar yenidənqurma zəminində və onun ideyalarının inkişafı prosesində meydana gəlmişdir. Öz övladlarından imtina etmək günahdır" (5, 43-47).

1990-cı ilin dekabrında SSRİ xalq deputatlarının dördüncü qurultayında İttifaq dövlətinin taleyini ümumxalq referendumunda həll etmək haqqında qərar qəbul edildi. SSRİ Ali Sovetinin 1991-ci il 16 yanvar tarixli qərarı ilə referendumu bu ilin mart ayının 17-də keçirmək qərara alındı.

Rəsmi elan olunmuş məlumatlara görə, Ukraynada əhalinin 83 %-i referendumda iştirak etmiş və onların 70 %-i İttifaq dövlətinin saxlanılmasına "hə" demişdi (4. 436).

Suveren Respublikalar İttifaqı haqqında müqavilənin ilkin layihəsi 1991-ci il martın 9-da mətbuatda dərc olundu. Sonradan bu layihə bir neçə dəfə dəyişdirilmiş və qeyd olunan ilin 17 iyununda M.S. Qorbaçov layihənin son variantını imzalayaraq 17 mart referendumunda iştirak etmiş 9 respublikanın Ali Sovetlərinə göndərmişdi. İyulun 23-də müqavilə layihəsinin hazırlandığı Novo-Oqaryovda SSRİ-nin, müttəfiq və muxtar respublikaların əksəriyyətinin rəhbərlərinin iştirakı ilə geniş iclas keçirildi, ittifaq vergi və rüsumları haqqında bölmə istisna olmaqla, yerdə qalan bütün məsələlər razılaşdırıldı (4, 461).

İttifaq müqaviləsinin imzalanması ərəfəsində, 1991-ci il avqustun 19-da Moskvada Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin yaradıldığı elan edildi. SSRİ prezidentinin səlahiyyətlərini yerinə yetirən Q.İ.Yanayev, SSRİ baş naziri V.S.Pavlov, SSRİ DTK-nın sədri V.A.Kryuçkov, SSRİ müdafiə naziri D.T.Yazov, SSRİ daxili işlər naziri B.K.Puqo, SSRİ Müdafiə Şurası sədrinin birinci müavini O.D.Baklanov, , SSRİ Kəndli İttifaqının sədri V.A.Stradubtsev, SSRİ Sənaye, Tikinti, Nəqliyyat və Rabitə Dövlət Müəssisələri və Obyektləri Assosiasiyasının prezidenti A.İ.Tizyakovun daxil olduqları Komitə dövlət çevrilişinə

cəhd edərək avqustun 19-dan başlayaraq 6 ay müddətinə SSRİ-nin ayrı-ayrı yerlərində fövqəladə vəziyyət elan olunduğunu bildirmişdi. (6, 18-20).

Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin yaradılması Ukraynada birmənalı qarşılanmadı. Sentyabrın 19-da SSRİ Quru Qoşunları komandanı V.Varennikov, Ukrayna KP MK-nın birinci katibi S. Qurenkonun müşayəti ilə Ali Radaya gələrək onun sədri L. Kravçuka ultimativ şəkildə bildirmişdi ki, Dövlət Komitəsinin əleyhinə çıxışlar olacağı təqdirdə onların yatırılması üçün qoşunlardan istifadə olunacaqdır. Öz növbəsində, ehtiyatlı davranan L. Kravçuk bu günlərdə qəti mövqe bildirməmişdi. Ali Radanın üzvlərinə gəldikdə isə, "Xalq Radası"na daxil olan deputatlar Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsini tanımaqdan imtina etmişdilər. Kommunistlər isə əks mövqe tutmuşdular (1, 569). Buna baxmayaraq, qiyamçılar məqsədlərinə çata bilmədilər. Cəmiyyətin əsas hissəsinin və ordunun qiyamçıları müdafiə etməməsi dövlət çevrilişi planının iflasa uğraması və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi üzvlərinin həbs edilməsi ilə nəticələnmişdi. Bu eyni zamanda Yeni ittifaq müqaviləsi ideyasının da öz aktuallığını itirməsi demək idi, çünki bu hadisələrdən sonra SSRİ-nin süqutu məsələsi gündəlikdə duran məsələyə çevrilmişdi.

Ukrayna da artıq Yeni ittifaq müqaviləsinin imzalanması əleyhinə çıxan respublikalar arasında idi. A.V.Filippovun qənaətinə görə, bu həm də Rusiya ilə Ukrayna arasında 1654-cü ildən mövcud olmuş ittifaqın sonu demək idi (7, 320) .

Baş vermiş qiyam SSRİ-nin tərkibində qalmağın müəyyən risklərlə bağlı olduğunu bir daha göstərdi. Bunu nəzərə alan Ukrayna Xalq Hərəkatı və demokratik düşərgəni təmsil edən digər qüvvələr Ukraynanın dövlət müstəqilliyinin elan olunması tələbi ilə çıxış edirdilər. Mühafizəkar düşərgənin, hadisələrin dönməzliyini nəzərə alan və gələcək hakimiyyətdə təmsil olunmağa can atan hissəsi də müstəqillik tərəfdarlarının tələblərini müdafiə edirdilər.

Beləliklə, 1990-cı il avqustun 24-də Ali Rada "Ukraynanın müstəqilliyi haqqında Akt" qəbul etdi. Müstəqillik Aktında bəyan olunurdu ki, "1991-ci il avqustun 19-da SSRİ-də dövlət çevrilişi ilə əlaqədar Ukrayna üzərindəki ölümcül təhlükədən çıxış edərək, Ukraynada minillik dövlət quruculuğu ənənəsini davam etdirərək, BMT Nizamnaməsi və digər beynəlxalq-hüquqi sənədlərdə nəzərdə tutulmuş özünütəyinetmə hüququndan çıxış edərək, Ukraynanın dövlət suverenliyi haqqında Bəyannaməni həyata keçirərək Ukrayna Sovet Sosialist Respublikasının Ali Radası Ukraynanın müstəqilliyini və müstəqil Ukrayna dövlətinin – Ukraynanın yaradıldığını təntənəli surətdə bəyan edir".

Qeyd olunan ilin 1 dekabrında Ukraynada keçirilmiş ümumxalq referendumunda seçki hüququ olan 37,8 mln. nəfərin 31,8 mln. nəfəri və ya 84,2 %-i iştirak etmişdi. Sonuncuların isə 28,8 mln. nəfəri və ya 90,3 %-i Müstəqillik Aktının lehinə səs vermişdi. Eyni zamanda, referendumda iştirak edənlərin 61,8 %-nin səsini toplamış L.Kravçuk müstəqil Ukraynanın ilk prezidenti seçilmişdi (1, 571-572).

1991-ci il dekabrın 8-də Rusiya, Belorusiya və Ukrayna rəhbərləri B.Yeltsin, S.Şuşkeyeviç və L.Kravçuk SSRİ-nin beynəlxalq hüququn subyekti və geosiyasi reallıq kimi mövcudluğuna son qoyulduğunu bəyan etdilər və təmsil etdikləri dövlətlərdən ibarət Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında razı-

laşma imzaladılar.

## ƏDƏBİYYAT


1. Новітня історія України (1900-2000). Київ: Вища школа, 2002, 719 с.
2. Ковалева Е. От элитизма через корпоратизм к плюрализму? Роль элит в политических трансформациях на Украине / Research support scheme. Published in March 1999, 126 s. – http://rss.archives.ceu.hu/archive/00001026/01/27.pdf
3. Məmmədov H. Ukraynanın müasir tarixi. Bakı: Elm və Təhsi, 2009, 180 s.
4. Медведев Р. Советский Союз. Последние годы жизни. Конец советской империи. М.: АСТ: АСТ МОСКВА: Полиграфиздат, 2010. 637 с.
5. Здравомыслов А.Г. Межнациональные конфликты в постсоветском пространстве. М.: Аспект Пресс, 1999, 286 с.
6. Август-91. М.: Политиздат, 1991, 272 с.
7. Филиппов А.В. Новейшая история России 1945-2006 гг.: М.: Просвещение, 2007, 494 с.


## ИЗ ИСТОРИИ НЕЗАВИСИМОСТИ УКРАИНЫ


**А.Ш.ШАХМУРАДОВ**


## РЕЗЮМЕ


В конце 80-х гг. XX века Украина, как и другие республики Советского Союза, находилась в состоянии социально-экономического, политического и идеологического кризиса. В результате политики «перестройки» М.С. Горбачева кризис на Украине еще более углублялся и росли тенденции к независимости. Возникли оппозиционные партии и организации, были организованы массовые демонстрации, коммунистическая партия была отстранена от власти. После неудачной попытки государственного переворота в августе 1991 года в Москве, политические процессы ускорились и 24 августа была объявлена государственная независимость Украины.



**Ключевые слова**: Украина, Верховная Рада, Народное движение Украины, Суверенитет Украины, государство


## HISTORY OF INDEPENDENCE OF UKRAINE


**A.Sh.SHAKHMURADOV**


## SUMMARY


In the late 80s of the XX century Ukraine, like other republics of the Soviet Union was in the state of socio-economic, political and ideological crisis. As a result of Gorbachev's "perestroika" ("restructuring") policy the crisis in Ukraine even more deepened and grew tendencies towards independence. Opposition parties and organizations appeared. Mass demonstrations were organized, the Communist Party was ousted from power. After the unsuccessful coup attempt in August, 1991 in Moscow the political process accelerated and on August 24 the independence of Ukraine was declared.



**Key words:** Ukraine, The Supreme Rada, National Movement of Ukraine, sovereignty of Ukraine, state